# Sözün sehri var ki, yüz illəri aşar: yaşadılan ənənə



**Azərbaycan ədəbiyyatının inkişaf mərhələlərinə nəzər yetirdikdə XVIII əsrin ortalarından sonlarına qədər davam edən dövr xüsusilə diqqət çəkir. Bu dövrdə ölkəmizin siyasi cəhətdən parçalanması və xanlıqlar şəklində idarə olunması ilə yanaşı, ədəbi həyatda da mühüm yeniliklər baş vermişdir. Məhz belə mürəkkəb bir tarixdə Molla Pənah Vaqif kimi görkəmli şəxsiyyətlər həm poeziyamız, həm də ictimai düşüncə tariximizdə yer tutdular.**




Molla Pənah Vaqif (1717-1797) dövlət xadimi, diplomat və ictimai fikir adamı idi. Onun Qazax mahalının Qıraq Salahlı kəndindən başlayaraq Qarabağ xanlığının ən nüfuzlu simalarından birinə çevrilməsinə qədər uzanan həyat yolu ictimai və mədəni yüksəlişlərlə dolu idi. Vaqifin həyatında dönüş nöqtələrindən biri onun Şuşaya köçməsidir. Bu şəhərə gələndən sonra o, əvvəlki peşəsinə - müəllimliyə qayıdaraq məktəb açır. Artıq sadəcə müəllim və ya şair kimi deyil, nüfuzlu ictimai şəxs kimi də tanınır. Onun söz ustalığı, elmi bilikləri, hazırcavablığı və zəkası Qarabağ xanı İbrahimxəlil xanın diqqətindən yayınmır. Xan onu saraya dəvət edir və əvvəlcə eşik ağası, yəni daxili işlər üzrə vəzir vəzifəsinə təyin edir. Lakin Vaqif qısa zamanda sarayın ən nüfuzlu simasına çevrilir. Təxminən 27 il müddətində Qarabağ xanlığının daxili idarəçiliyindən tutmuş diplomatik əlaqələrin qurulmasına qədər bütün əsas sahələrdə onun imzası görünür.

Tarixi mənbələr Vaqifin yalnız şair deyil, eyni zamanda strateji düşüncəyə malik dövlət adamı olduğunu göstərir. Onun təşəbbüsü və təşkilatçılığı ilə Şuşa şəhərinin müdafiə sistemləri gücləndirilmiş, şəhərin abadlaşdırılması istiqamətində mühüm işlər reallaşmışdır. Eyni zamanda, Ağa Məhəmməd şah Qacarın hücumuna qarşı diplomatik müstəvidə də tədbirlər görülmüş, qonşu xanlıqlar və dövlətlərlə ittifaqlar yaradılmış, Rusiya ilə əlaqələr dərinləşdirilmişdir. Bu tədbirlər nəticəsində Qacarın ilk hücumu zamanı Şuşa qalası düşməndən uğurla müdafiə olunmuşdu. Lakin ikinci hücum zamanı vəziyyət fərqli idi. Rusiya ordusunun geri çəkilməsi və daxili xaos müdafiəni zəiflətdi. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı işğal etdi və Vaqifi zindana saldı. Lakin Qacarın öz sarayında sui-qəsd nəticəsində öldürülməsi Vaqifin həbsdən azad olunmasına səbəb oldu. Bu hadisədən sonra yazdığı məşhur qəzəl "Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax" şairin bu taleyüklü dönəmdəki hiss və düşüncələrinin poetik ifadəsi kimi diqqətəlayiqdir. Vaqifin azadlığı uzun sürmür. Qacarın ölümündən sonra yaranan qarışıqlıqdan istifadə edən bəzi yerli qüvvələr onun siyasi nüfuzundan narahat olaraq oğlu Əli ağa ilə birlikdə Şuşada edam etdirirlər. Edamdan sonra şairin evi talan edilir, əlyazmaları dağıdılır, şəxsi arxivi məhv edilir. Bu səbəbdən Vaqifin zəngin yaradıcılığının yalnız bir hissəsi günümüzə gəlib çatmışdır. Lakin əldə olan əsərləri belə onun ədəbi gücünü göstərməyə yetərlidir. Vaqifin poeziyası əsasən gözəllik və sevgi mövzularına həsr olunmuşdur. Onun qoşma və qəzəllərindəki obrazlar - "sərv qədli", "mina boylu", "zülfü ənbər", "şəkər göftarlı" gözəllər - yalnız estetik idealın deyil, real həyatın da inikasıdır.

*Oturuşun gözəl, duruşun gözəl,*
*Sallanışın gözəl, yerişin gözəl,*
*Xoyun, xülqün gözəl, hər işin gözəl,*
*Bəxş olub bu xubluq xudadan sənə.*

Xarici gözəlliyin təsviri şairin şeirlərində əsas yer tutur:

***Ənliyi, kirşanı neylər camalın,***
***Sən elə gözəlsən binadan, Pəri.***

Vaqifin Şuşada dəfn olunması da təsadüfi deyil. Bu şəhər onun yaradıcılığında xüsusi yer tutur. 1967-ci ildə Şuşaya səfər edən Ümummilli Lider Heydər Əliyev Vaqifin məzarını ziyarət etmək istəmiş, lakin onun dəqiq yerini müəyyənləşdirmək mümkün olmamışdı. Ulu Öndərin şəxsi təşəbbüsü və göstərişi ilə məzar yeri tapılmış, yenidən qurulmuşdur. 1980-1981-ci illərdə Şuşada Cıdır düzünə yaxın ərazidə Molla Pənah Vaqifin məqbərəsinin və memorial kompleksinin inşasına başlanmış, 1982-ci il yanvarın 14-də təntənəli açılış mərasimi keçirilmişdir. Açılış mərasimində şəxsən iştirak edən Heydər Əliyev burada Vaqif Poeziya Günlərinin təsis edilməsi ilə bağlı göstəriş vermişdir. Bundan sonra hər il avqust ayında keçirilən Vaqif Poeziya Günləri Azərbaycanın poeziya, mədəniyyət və sənət bayramına çevrilmişdir. Bu tədbir bir qayda olaraq şairin doğulduğu Qazaxdan başlanır, Şuşanın Cıdır düzündə başa çatırdı. Proqrama şeir gecələri, musiqili çıxışlar və klassik poeziya nümunələrinin səhnələşdirilmiş təqdimatları daxil edilirdi. Tədbir yalnız ədəbi yox, həm də mədəni-mənəvi dəyərlərin yaşadıldığı, poeziyanın xalqla birləşdiyi mühüm platformaya çevrilmişdi. Lakin 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin Şuşa şəhərini işğal etməsi ilə bu ənənə pozuldu. Şuşa ilə birlikdə onun mədəni irsi də ağır zərbə aldı. Molla Pənah Vaqifin məqbərəsi erməni işğalçıları tərəfindən vəhşicəsinə



dağıdıldı. Dağıdılmış məqbərə ilə yanaşı, Vaqifin həyatına və yaradıcılığına dair 80-dən artıq eksponatın sərgiləndiyi memorial kompleks də məhv edildi. 2020-ci ilin payızında Azərbaycanın Şuşa şəhərini işğaldan azad etməsi ilə yalnız strateji əhəmiyyətli bir ərazi deyil, həm də mədəniyyətimizin qüruru geri qaytarıldı. Uzun fasilədən sonra Molla Pənah Vaqifin adına ucaldılmış məqbərə kompleksi və Poeziya Günləri yenidən bərpa edildi. 2021-ci il avqustun 29-da Şuşada Vaqif Poeziya Günlərinin rəsmi şəkildə bərpası bu baxımdan simvolik əhəmiyyət daşıdı. Bu, həm Vaqif poeziyasının yaşadığını sübut etdi, həm də Azərbaycanın mədəni dirçəliş iradəsinin göstəricisi oldu. 2021-ci il avqustun 30-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər. Dövlət başçımız çıxışında deyib: "Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq".

2023-cü ildə keçirilən Vaqif Poeziya Günləri həm proqram zənginliyi, həm də təşkilatçılıq səviyyəsi baxımından əvvəlki illərlə müqayisədə fərqli və daha geniş miqyaslı oldu. Bu tədbir ümumilikdə Azərbaycan mədəniyyətinin rəmzinə çevrildi. Vaqif Poeziya Günləri 2023-cü ildə iyulun 13-də Molla Pənah Vaqifin doğulduğu Qazax rayonunun Yuxarı Salahlı kəndindən başladı. Bu, şairin doğulduğu Qazaxla, yaradıcılığının inkişaf etdiyi və dəfn edildiyi Şuşa ilə mədəni körpü rolunu oynadı. Bu iki mədəni məkan arasında təşkil edilən poeziya estafeti həm tarixə, həm də gələcəyə bağlılıq jesti idi. İyulun 14-15-də isə Vaqif Poeziya Günləri Şuşada davam etdi. Şəhərin yenidən qurulan tarixi məkanlarında keçirilən tədbirlər sözün əsl mənasında poeziya bayramına çevrildi. Heydər Əliyev Fondu tərəfindən bərpa olunmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi tədbirlərin əsas mərkəzi oldu. Burada oxunan şeirlər, səsləndirilən musiqilər, təqdim olunan ədəbi kompozisiyalar Vaqifin irsini yaşatmaqla yanaşı, həm də Şuşanın ruhuna yeni nəfəs gətirdi. Eyni zamanda, Natəvanın evi qarşısında təşkil olunan ədəbi-bədii tədbirlər, Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında keçirilən ekspozisiyalar, "Xarıbülbül" və "Qarabağ" hotellərindəki şeir gecələri və konsert proqramları şəhərin mədəni həyatını canlandırdı. Bu tədbirlərin hər biri Vaqif poeziyasının müxtəlif istiqamətlərdə təqdimatına xidmət etməklə yanaşı, Azərbaycanın klassik və müasir sənətçilərini bir araya gətirdi. Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Şuşada Mehmandarovların Malikanə Kompleksində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr olunmuş, Azərbaycanın böyük şairi Molla Pənah Vaqifə həsr edilmiş "Özü vəzir, sözü şah" kitabının təqdimatı keçirildi.

Vaqif Poeziya Günləri bu gün milli ideya olaraq yaşadılır. Bu tədbir vasitəsilə Azərbaycan xalqı öz ədəbiyyatı və mədəniyyətini yaddaşda saxlayır. Burada səslənən hər misra, oxunan hər şeir və ifa olunan hər mahnı xalqın mədəni dirənişinin və ruh yüksəkliyinin göstəricisidir. Vaqif Poeziya Günləri Azərbaycan mədəniyyətinin döyünən nəbzidir. Hər misra Şuşanın dağlarına ucalır, hər şeirlə mədəniyyətimiz bir az daha yüksəlir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**